# EU4IM
# KONTENT (MƏZMUN) İSTEHSALINA DƏSTƏK
## Uyğunluq Kriteriyası

### Əsas önəmli kriteriya:

EU4IM - EU4 Independent Media (Müstəqil Media Üçün Aİ) sadəcə müstəqil medialarla əməkdaşlıq edir. Media qurumları aşağıdakı əsas meyarlara cavab verməlidir:

- Sahibkar(lar) və ya onların siyasi və ya biznes müttəfiqləri tərəfindən redaksiya prosesinə müdaxilə edilməməli.

### Kimlər iştirak edə bilər:

- Layihədə iştirakı nəzərdə tutulmuş 6 ölkədə qanuni olaraq auditoriyaya xidmət etmək məqsədiylə qeydiyyatdan keçmiş bütün xəbər təşkilatları;
- Media ilə bağlı qeyri-hökümət təşkilatları;
- Kontent istehsalı ilə məşğul olan müstəqil təşkilatlar/şirkətlər;
- Yuxarıda qeyd olunanlarla bu və ya digər şəkildə əlaqəli olan jurnalistlər/kontent istehsalı ilə məşğul olan qruplar;

### İştirak üçün önəmlidir:

- Müraciətdən ən azı 6 (altı) ay öncə fəaliyyətə başlamış olmalı;
- Birdən çox platformada məzmun hazırlamalı (sosial media da belə platformalardan biri hesab olunur);
- Ortaq Etika Kodeksinə sahib jurnalist təşkilatlarına üzvlüyü olmalı, bu təşkilatlarda peşə etikası kodeksinə /redaksiya təlimatlarına yiyələnməli və ya jurnalistika standartlarını qorumalı və ya əlaqəli təşəbbüslərdə iştirak etmək təcrübəsinə sahib olmalı;
- Avropa İttifaqı (Aİ) tərəfindən maliyyələşdirilən digər layihələrlə duplikasiyaya yol verilməməli;

### Aşağıdakı medialar kontent istehsalı dəstəyi üçün uyğun deyil:

- Beynəlxalq yayın orqanları;
- İctimai beynəlxalq təşkilatlar;
- Müflis olmuş, likvidasiya prosesində olan və ya dələduzluq və ya korrupsiya ilə əlaqədar cinayət məsuliyyətinə cəlb edilmiş təşkilatlar; proqrama qəbul olunduqları halda onlardan dəstəkləyici sənəd və/və ya Şərəf Bəyannaməsini (Declaration of honor) təqdim etmələri tələb oluna bilər. **Bu bəyannamə bütün iştirakçıların qaydalara əməl etmələrini və onların Aİ-nin maliyyələşdirilməsini istisna edəcək vəziyyətdə olmamasını təmin edir;**

- Aşkar saxtakarlıq və ya trolling məqsədli yardım istəyi və tələblərinin olması;

Uyğunluqla bağlı bütün yekun qərarlar EU4IM –in mütəxəssis qrupu tərəfindən veriləcək.